# Tarixdə iz buraxanlar: Nəsib bəy Yusifbəyli

**Nəsib bəy Yusifbəyli 1881-ci il iyul ayının 5-də Gəncə şəhərində anadan olub. 1890-cı ildə Gəncə klassik gimnaziyasına daxil olan Nəsib bəy orta təhsilini 1902-ci ildə burada başa vurub. Gimnaziyada oxuduğu zaman sakit, təvəzökar davranışı ilə seçilib. Boş vaxtlarını türk və fars dillərində kitablar oxumaqla keçirib.**



Orta təhsilini Gəncə klassik gimnaziyasında başa vurduqdan sonra Nəsib bəy Odessa Universitetinin hüquq fakultəsinə daxil olub. Hələ tələbə ikən azərbaycanlı tələbələr arasında fəallığı ilə seçilib. O, Nəriman Nərimanov, Xosrov bəy Sultanov və başqa tələbələrlə birgə Azərbaycan Həmyerlilər Təşkilatını yaradıb. 1907-ci ildə Odessa Universiteti müvəqqəti bağlandıqdan sonra Nəsib bəy Bağçasaray şəhərində yaşayıb və o dövrün görkəmli ictimai-siyasi xadimi, türk dünyasının böyük ziyalısı İsmayıl bəy Qaspıralının redaktoru olduğu "Tərcüman" qəzeti ilə əməkdaşlıq etməyə başlayıb. Nəsib bəy burada İsmayıl bəy Qaspıralının qızı Şəfiqə xanımla tanış olur və onunla ailə həyatı qurur. Bu nikahdan onların iki övladı olur. Qızı Zöhrə xanım İsmayıl bəy Qaspıralının vaxtsız dünyadan köçmüş sevimli xanımının adını daşıyır və bu günə qədər İstanbulda Zöhrə Göygöl adı ilə yaşamaqdadır.

Nəsib bəy Yusifbəyli 1908-ci ildə Türkiyəyə gedir və orada siyasi fəaliyyətlə məşğul olur. O burada "Türk ocağı" dərnəyinin ən fəal üzvlərindən birinə çevrilir. 1911-ci ildə Gəncəyə qayıdan Nəsib bəy şəhər bələdiyyəsində işləməyə başlayır, Gəncə bələdiyyəsi rəisinin köməkçisi kimi böyük nüfuz qazanır. Nəsib bəy Yusifbəyli həmin dövrdə gizli fəaliyyətə keçən Əhməd bəy Ağaoğlunun rəhbəri olduğu "Difai" partiyasının təşkilatlanmasında yaxından iştirak edir.

Nəsib bəy rus ordusunun gələcəkdə Azərbaycanın müstəqilliyinə əngəl olacağını, çətin məqamda ruslarla ermənilərin birləşərək Azərbaycanın müstəqilliyə qovuşmasına yol verməmək üçün qırğınlar törədəcəklərini əvvəlcədən hiss edirdi. Ona görə də Türk Ədəmi-Mərkəziyyət Partiyasının üzvlərinin köməyilə Gəncədə olan iki rus alayının tərksilah edilməsinə nail olur.

Türk Ədəmi-Mərkəziyyət Partiyasının qurulmasında Nəsib bəyə silahdaşları Şəfi bəy Rüstəmbəyov, Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov yaxından kömək edib. Doqquz bölmədən ibarət partiya proqramının birinci bölməsi "Azərbaycan" adlanırdı. Sonralar Məmməd Əmin Rəsulzadə də etiraf edib ki, "Azərbaycançılıq ideyasını siyasi bir mətləb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir."

Qafqaz müsəlmanlarının qurultayı zamanı Nəsib bəy Yusifbəyli ilə Məmməd Əmin Rəsulzadə görüşərkən rəhbəri olduqları partiyaların birləşməsi üçün razılığa gəlir. 1917-ci il iyun ayının 17-də birləşmə qurultayı keçirilir. Sədri M.Ə.Rəsulzadə olmaq şərtilə, yeni partiya Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat adlandırılır. Bakı və onun ətrafında təsir gücünə malik Müsavat partiyası ilə Gəncə və onun ətrafında böyük nüfuza malik, üstəlik hər iki quberniyanın zadəganlarının əksəriyyətini öz sıralarında birləşdirən Türk Ədəmi-Mərkəziyyət Partiyası o dövrdə mövcud olan bütün partiyaları kölgədə qoyur. Həmin birləşmədən sonra parlamentdə keçirilən seçkilərdə əldə edilən 32 deputat mandatının 14-nü Müsavat, 18-ni isə Türk Ədəmi-Mərkəziyyət Partiyasının nümayəndələri qazanmışdı. Bir sözlə, istər Cənubi Qafqaz Seymində, istər Azərbaycan Milli Şurasında, istərsə də parlamentində Müsavat fraksiyasının üstünlük təşkil etməsi Nəsib bəyin rəhbəri olduğu Türk Ədəmi-Mərkəziyyətçilərin say üstünlüyü hesabına mümkün olub.

Nəsib bəy Yusifbəyli Cənubi Qafqaz Seyminin üzvü, 1918-ci il aprel ayının 26-da yaranan müstəqil Cənubi Qafqaz Seyminin maarif naziri idi. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini elan edir. Onu imzalayanlar arasında Nəsib bət Yusifbəyli də var idi. Azərbaycanın ilk müstəqil hökumətində, Fətəli xan Xoyskinin təşkil etdiyi ilk kabinetdə Nəsib bəy Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini tutub. Fəqət məlumdur ki, həmin vaxt paytaxt Bakı bolşevik qiyafəsinə bürünmüş erməni-rus birləşməsinin işğalı altında idi. Bakını azad etmək üçün isə yenicə müstəqillik əldə etmiş Azərbaycanın nə yetərincə canlı qüvvəsi, nə də silah-sursatı vardı. Bütün bunları əvvəlcədən ölçüb-biçən Nəsib bəy Yusifbəyli çıxış yolunu yalnız Türkiyənin hərbi yardımında görürdü. Ona görə də Nəsib bəy Müsəlman Milli Şurası adından Türkiyəyə nümayəndə göndərmək üçün Gəncədə şuranın iclasını çağırır. Bu tarixi toplantını açan Nəsib bəy: "Xalq qüvvəsi ilə görülən işlər xalqın gözünün önündə cərəyan edib. Bütün hərəkətlərimiz zəfərlə nəticələnib. Ancaq bu qəhrəmanca hərəkətlər nəticəni əldə etməkdən çox uzaqdır. Azərbaycanın mərkəzi Bakı düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq qüvvələrimiz kifayət deyildir. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə ancaq Osmanlı imperatorluğu edə bilər. İndi qərar qəbul edib, Osmanlı imperatorluğuna səlahiyyətli bir heyət göndərərək Türkiyədən yardım istəyək"- deyib. Nəticədə, şuranın qərarı ilə sonralar müstəqil Azərbaycanın təhlükəsizlik xidmətinin rəhbəri olan Nağı bəy Şeyxzamanlı 1918-ci ilin yanvarında Türkiyəyə göndərilir. Nağı bəy Sədrəzəm Tələt paşa, Hərbi Nazir Ənvər paşa və sultanla görüşür. Nuru paşanın komandanlığında Azərbaycana hərbi yardım göndərilir.

Müvəqqəti hökumət iyunun 16-da Tiflisdən Gəncəyə köçərkən artıq Nuru paşa 300 əsgər və zabitlə Gəncəyə gəlmişdi. Həmin vaxt Azərbaycanda iki əsas cərəyan hökm sürürdü. Bir qisim Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin, digər qisim isə Türkiyənin hərbi yardımı ilə müstəqilliyin qorunub saxlanmasının tərəfdarı idi. Yaranan gərgin vəziyyətdə Nuru paşanın tələbi ilə Milli Şura buraxılır. Yeni parlament formalaşanadək hakimiyyət Fətəli xan Xoyskinin sədrliyi ilə müvəqqəti hökumətə verilir. Nəsib bəy ikinci hökumət tərkibində xalq maarifi və dini etiqad naziri vəzifəsini tutur. 1918-ci il sentyabr ayının 15-də Azərbaycan-türk hərbi birləşmələri Bakını işğaldan azad edir.

Nuru paşanın başçılığı altında Qafqaz İslam ordusu sentyabr ayında Bakını işğalçılardan azad etdikdən sonra dövlətin möhkəmləndirilməsində ən mühüm addım 7 dekabr 1918-ci ildə parlamentin açılması olur. Nəsib bəy Azərbaycan Milli Şurasının 44 üzvü ilə bərabər avtomatik olaraq deputatlar sırasına daxil edilir. O, parlamentin mövcudluğu ərzində tutduğu vəzifədən asılı olmayaraq milli məsələlərin müzakirəsində fəal iştirak edib, özünün vətəndaş mövqeyini çəkinmədən ortaya qoyub, Parlament kürsüsündə 25 dəfə çıxış edib. Məclisi-Məbusandakı ən nüfuzlu partiyanı və dövlətin ən nüfuzlu məqamını təmsil etdiyinə görə onun çıxışlarının çəkisi ağır, söylədiyi fikirlərin ictimai rəyə təsiri geniş olub.

1919-cu il mart ayının 14-də dördüncü kabinet təşkil edilir və Nəsib bəy Nazirlər Şurasının sədri və daxili işlər naziri seçilir. Həmin il dekabrın 24-də təşkil edilən beşinci kabinetdə Nəsib bəy yenə hökumət başçısı seçilir. O dövrdə ölkədə siyasi vəziyyət xeyli kəskinləşmişdi. Parlamentdə və hökumətdə təmsil olunan müəyyən qüvvələr bolşeviklərlə gizli danışıqlara gedir, hakimiyyət süqut edib bolşeviklərin əlinə keçəcəyi təqdirdə özlərinin toxunulmazlığını əvvəlcədən təmin etmək istəyirdilər. Xüsusən Müsavat Partiyasının daxilində gedən çəkişmələr riyakarlıq və ikiüzlülükdən uzaq olan Nəsib bəyi çox narahat edirdi. 1920-ci il aprel ayının 1-də Nəsib bəy hökumət başçısı vəzifəsindən istefaya getdiyini bəyan edir. Fəqət yeni hökumətin təşkil edilməsinə macal tapılmır. Aprel ayının 28-nə keçən gecə hakimiyyət bolşeviklərə təhvil verilir. Bolşevik irticasından qurtulmaq üçün Xalq Cümhuriyyətinin qurucuları mühacirət etmək məcburiyyətində qalırlar. Nəsib bəy yaxın dostu İbrahim Yusif bəylə bərabər Tiflisə yola düşür. Yəni Azərbaycan Xalq Cümhuriyyətini quranlardan biri Nəsib bəy Yusifbəyli aprel işğalından sonra təqiblərdən yaxa qurtarmaq üçün Bakını tərk edir. Fəqət 31 may 1920-ci ildə yolda faciəli surətdə qətl edilir.

Nəsib bəy Yusifbəyli son dərəcə təmiz və gözütox bir insan idi. Onun paklığını baş nazir olarkən atasının ona göndərdiyi bir məktubdan görmək olar: "Əziz oğlum, çox səbr etdim, amma yazacam. Mən sıxıntı çəkərək, borc altına girərək sənə yüksək təhsil təmin edə bildim. Artıq təhsilini bitirib gəldin, şəhərin ərzaq işləri üzrə rəisi oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək Seymin maarif naziri oldun. Aldığın maaşla dolana bilmədin. Bir neçə dəfə pul istədin, göndərdim. Sonra Azərbaycanın istiqlalını elan etdiniz. Cümhuriyyətimizin maarif naziri oldun. Paytaxtımız Bakıda çalışdın. Yenə də aldığın maaş xərclərini ödəmədi. Məndən pul istədin, göndərdim. Bu gün isə Baş nazirsən, dövlət rəisisən, yeni ölkəmizin padşahı sayılırsan. Yenə bağının qamışını mən alım? Pul göndərə bilməzsən?.." Yəni Nəsib bəy Vətəninə dürüst bir rəhbər kimi xidmət edib.

Əqidəcə sosial-demokrat olan və xalqın taleyini düşünən, onun ağır həyatını rifaha qovuşdurmağın yeganə yolunu maariflənmədə görən Nəsib bəy soydaşlarının, yurddaşlarının savadlanmasını başlıca hədəf götürürdü. Ancaq o dönəmin Gəncə mühitində yeni düşüncələri qəbul etdirmək heç də asan deyildi. Milləti yalnız savadın, maarifin xilas edəcəyinə inanan Nəsib bəy özü də şəxsən bu yolda çalışıb, müəllimlik edib, maarif işinə şəxsi töhfəsini verməyə can atıb. O, Gəncədə mövcud olan bir çox ictimai təşkilatların fəaliyyətlərində yaxından iştirak edib.

Parlamentin 12 may 1919-cu il tarixli 38-ci iclasında müəllimlərin maaşının artırılması müzakirə edilərkən Nəsib bəy Yusifbəyli öz çıxışında: "Möhtərəm deputatlar! Müəllimlərin maaşını nə qədər artırsanız yəqin edin ki, bundan bir şey itirməyəcəksiniz, çünki bizim varlığımız və gələcəyimiz ancaq müəllimlərin əlindədir. Müəllim nə qədər ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbəttə ki, o, millətə bir şey verə bilməz və o məktəbdən bir şey çıxmaz"- deyərək maaş artımı ilə bağlı müəyyən tövsiyələrini verib.

Nəsib bəyin kimlər tərəfindən harada öldürülməsi barədə ən müxtəlif fikirlər var. M.Ə Rəsulzadə Nəsib bəy Yusifbəylinin əziz xatirəsinə həsr etdiyi məqalədə onun Gürcüstanın Sığnax mahalında həlak olduğunu yazıb. N.Şıxzamanlı Nəsib bəyin Ərəş qəzasında naməlum şəxslər tərəfindən öldürüldüyünü qeyd edib. Mərhum jurnalist Hafiz Sadıq Nəsib bəyi Qarxunlu Əşrəfin dəstəsinin öldürdüyünü yazıb...

Nəsib bəy Yusifbəyli Azərbaycanın yenidən istiqlala qovuşacağına bütün varlığı ilə inanırdı. O, işğal axşamı - aprel ayının 27-də Nağı Şeyxzamanlı ilə görüşündə: "Biz öz gücümüzlə Azərbaycanın istiqlalını yaratdıq. Fəqət onu yaşada bilmədik. Ancaq xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumunun mənəvi varlığımıza birləşdirdiyimiz hürriyyət ruhu yox olmayacaqdır"- deyib. Bəli, bu gün Azərbaycanın dövlət müstəqilliyi əbədi olaraq təmin edilib. Yəni Nəsib bəyin ruhu şaddır.

Allah rəhmət eləsin.

*Fazil QARAOĞLU*
*professor*